## Dəniz üzgüçülüyünün hərəkət təhlükəsizliyi ilə bağlı xidmətlərin tariflərinin tənzimlənməsi barədə

QƏRAR № 5

### AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI

### QƏRAR №5

**Bakı şəhəri, 1 avqust 2014-cü il**

### Dəniz üzgüçülüyünün hərəkət təhlükəsizliyi ilə bağlı xidmətlərin tariflərinin tənzimlənməsi barədə

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 14 may 2014-cü il tarixli 161 nömrəli Fərmanının 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında əsasnamə"yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. Beynəlxalq səfərlər zamanı dəniz üzgüçülüyünün hərəkət təhlükəsizliyi ilə bağlı göstərilən xidmətlərin tarifləri gəminin ümumi tutumundan asılı olaraq ƏDV-siz aşağıdakı səviyyədə təsdiq edilsin:

| № | Xidmətin adı | Tarif (manat/m$^3$) | | | | |
|---|---|---|---|---|---|---|
| | | Tanker | | Sərnişin, Ro-Ro, Bərə və konteyner gəmiləri | Digər gəmilər | |
| | | 15 min m$^3$-ə qədər olan hissə üçün (15 min m$^3$ daxil olmaqla) | 15 min m$^3$-dən artıq olan hissə üçün | | 8 min m$^3$-ə qədər olan hissə üçün (8 min m$^3$ daxil olmaqla) | 8 min m$^3$-dən artıq olan hissə üçün |
| I | II | III | IV | V | VI | VII |
| 1. | Gəmi yığımı (limana bir giriş-çıxış üzrə) | 0,09 | 0,045 | 0,035 | 0,1 | 0,05 |
| 2. | Kanal yığımı (limana bir giriş-çıxış üzrə) | 0,01 | 0,005 | 0,01 | 0,04 | 0,01 |
| 3. | Bələdçi yığımı: | | | | | |
| 3.1. | liman daxili (saat üzrə) | 0,02 | 0,01 | 0,01 | 0,02 | 0,02 |
| 3.2. | limandan xaric (mil üzrə) | 0,0017 | 0,00085 | 0,0005 | 0,003 | 0,003 |
| 4. | Naviqasiya və mayak yığımı (limana bir giriş-çıxış üzrə) | 0,03 | 0,015 | 0,0127 | 0,04 | 0,01 |
| 5. | Lövbər yığımı (gün üzrə) | 0,0004 | 0,0002 | 0,0002 | 0,0002 | 0,0002 |

2. Kabotaj səfərlər zamanı dəniz üzgüçülüyünün hərəkət təhlükəsizliyi ilə bağlı göstərilən xidmətlərin tarifləri (bütün yığımlar daxil olmaqla) limana bir giriş-çıxış üzrə ƏDV-siz aşağıdakı səviyyədə təsdiq edilsin:

| № | Gəminin ümumi tutumu | Tarif (manat) |
|---|---|---|
| I | II | III |
| 1. | 500 m$^3$-dək olduqda (500 m$^3$ daxil olmaqla) | 30 |
| 2. | 500 m$^3$-dən 2000 m$^3$-dək olduqda (2000 m$^3$ daxil olmaqla) | 80 |
| 3. | 2000 m$^3$-dən 5000 m$^3$-dək olduqda (5000 m$^3$ daxil olmaqla) | 200 |
| 4. | 5000 m$^3$-dən 10000 m$^3$-dək olduqda (10000 m$^3$ daxil olmaqla) | 275 |
| 5. | 10000 m$^3$-dən 35000 m$^3$-dək olduqda (35000 m$^3$ daxil olmaqla) | 350 |
| 6. | 35000 m$^3$-dən yuxarı olduqda | 625 |

3. Müəyyən edilsin ki, bu qərarın 2-ci bəndinin cədvəl hissəsi ilə təsdiq edilmiş tariflər xətti üzmə marşrutuna malik müntəzəm sərnişindaşıma həyata keçirən gəmilər və ya eyni iki liman arasında hərəkət edən gəmilər üzrə limanlara giriş-çıxışın sayından asılı olmayaraq bir gün üçün tətbiq olunur.

4. Bu qərar 4 avqust 2014-cü il tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**

**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**